# Turistlərin çox sevdiyi İçərişəhər











İçərişəhər həmişə təkcə Bakı sakinlərinin, Azərbaycanın digər şəhər və bölgələrindən gələn qonaqların deyil, xarici turistlərin də diqqətini cəlb edib. Ölkələr arasında gediş-gəliş çoxaldıqca və Azərbaycanda turizm inkişaf etdikcə İçərişəhəri görüb sevənlərin sayı da artır.

Burada hər daş, hər divar bir dastan, bir əfsanə danışır. Əslində isə bunların hamısı gerçəklikdir, xalqımızın ulu tarixinin həqiqətləridir. Odur ki, qədim İçərişəhər əcnəbi qonaqlarımızı yalnız öz gözəllikləri ilə cəlb etməsinə görə önəm daşımır. Başlıcası odur ki, İçərişəhər özündə tarixin nişanələrini yaşadaraq xalqımızın qədim mədəniyyəti, memarlığı, məişəti, həyat tərzi haqqında geniş məlumat verir.

İllər keçib nəsillər dəyişsə də, bu gözəlliyə və əfsanələşən bu tarixə maraq azalmır.

***"Azərbaycan"***
***Foto Ağaəli MƏMMƏDOVUNDUR***